**UOT: 82.0.051**
https://doi.org/10.59849/2409-4838.2026.2.20

# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ DƏRC OLUNMUŞ JURNALLARDA ƏDƏBİYYATŞÜNAS ALİM HÜSEYN HƏŞİMLİNİN XİDMƏTLƏRİ

**Natavan Məhəmmədəli qızı İbrahimova**
AMEA-nın Naxçıvan Bölməsi, İncəsənət, Dil və Ədəbiyyat İnstitutu,
Naxçıvan, Azərbaycan
AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Bakı, Azərbaycan
Ibrahimovanatavan798@gmail.com

*Azərbaycan mətbuat tarixi milli maarifçilik və ədəbi-mədəni dirçəliş prosesinin ayrılmaz hissəsidir. Bu sahədə aparılan sistemli tədqiqatlar sayəsində bir çox mətbuat orqanları elmi dövriyyəyə daxil olmuş, müasir tədqiqatçıların diqqət mərkəzinə gətirilmişdir. Bu konteksdə Hüseyn Həşimlinin xidmətləri xüsusilə seçilir. Məqalədə Azərbaycan ədəbiyyatşünaslıq məktəbinin nümayəndələrindən olan professor Hüseyn Həşimlinin XX əsrin əvvəllərində dərc olunmuş "Şeypur" satirik jurnalı, "Məktəb" maarifçi dərgisi, "Yeni füyuzat" jurnallarındakı fəaliyyətindən və xidmətlərindən bəhs olunur. Məqalədə Hüseyn Həşimlinin bu jurnalların bərpası, təhlili və müasir ədəbi mühitə tanıdılması istiqamətində xidmətləri Azərbaycan ədəbiyytşünaslığında ilk dəfə araşdırmaya cəlb olunmuşdur. Hüseyn Həşimli bu mətbuat orqanların bədii üslubunu, müxtəlif nömrələrdə verilmiş nümunələrinin əsas məziyyətlərini elmi-ədəbi baxımdan ümumiləşdirib, müvafiq nəticəyə gəlmişdir.*

***Açar sözlər:*** *Hüseyn Həşimli, "Məktəb", "Yeni füyuzat", Şeypur", Azərbaycan məktəbi, maarifçilik ideyaları.*

## GİRİŞ

Azərbaycan ədəbiyyatşünaslığının tanınmış ədəbiyyatşünas alimlərindən biri Əməkdar elm xadimi, professor Hüseyn Həşimli olmuşdur. O, ədəbiyyatımızı zənginləşdirən, ədəbiyyat üçün sirr qalan, açılmayan mənbələri tapan alimlərdən biri kimi tanınmışdır. Hüseyn Həşimli ədəbiyyata olan sevgisi, diqqəti, qayğısı ilə ədəbiyyat üçün qaranlıq olan, açılmayan sirləri öz peşəkar səviyyəsi ilə araşdırıb tədqiqata cəlb eləmişdir. Filologiya elmləri doktoru, professor Tahirə Məmməd yazır: "Hüseyn müəllimin yaradıcılıq missiyasının əsasında qaranlıqları aydınlatmaq, unudulmuşları haqlı yerinə gətirmək dayanırdı. Maraqlıdır ki, nakam taleli insanların haqq etdikləri yeri qazandırmaq, onları tanıtdırmaqla nə qədər uğur qazansa da, özü də yarımçıq qalan işlərinin nakamlığını yaşadı" [12]. O, otuzdan artıq fundamental əsərin, 340-dan artıq məqalənin, yüzlərlə publisistik məqalənin müəllifidir. Mətnşünas alimin məqalələri dünyan;n bir çox ölkələrində dərc olunmuşdur. Yazdığı fundamental əsərlər ilə həmişə seçilmişdir. "Professor Hüseyn Həşimli elmi fəaliyyətində ədəbiyyat nəzəriyyəçiliyi ilə ədəbiyyat tarixçiliyini qoşa qanad kimi inkişaf etdirmiş və onların qarşılıqlı əlaqəsi əsasında orijinal elmi əsərlər yazıb nəşr etdirmişdir. Alimin ədəbiyyat nəzəriyyəsi üzrə ədəbi cərəyanlara, lirik ədəbi növün janrlarına, klassik ədəbi irsə və mənsur şeirin poetikasına həsr olunmuş tədqiqatları yüksək nəzəri səviyyəsi və fakt zənginliyi ilə səciyyələnir. Hüseyn Həşimli hazır sxemlərdən deyil, ədəbiyyat tarixinin daxili təkamül proseslərindən çıxış edərək nəzəri model yaratmağı bacaran alimlərdən idi [11].

Hüseyn Həşimli həmişə yüksək insani keyfiyyətləri ilə seçilmişdir. Filologiya üzrə fəlsəfə doktoru Elxan Məmmədov "Biz hələ kimi itirdiyimizin fərqində deyilik" adlı publisistik məqaləsində yazır: "Hüseyn Həşimli... İmzanın özü belə qarşısına istənilən mənəvi ağırlıqda təyinləri qoymağa kifayət edir. Amma bu imzanın qarşısına nə yazarsaq, ümumiləşdirib "sadə və səmimi insan" deməklə hamısını ehtiva edə bilərik [10, s. 354].

Hüseyn müəllim "Avropa lirik janrları və Azərbaycan ədəbiyyatı" adlı çox mükəmməl bir monoqrafiyanın müəllifidir. Monoqrafiyada ədəbiyyatımıza XX əsrdə daxil olmuş Avropa lirik janrları (sonet, marş, terset, himn) sistemli şəkildə ilk dəfə araşdırılmışdır. Tədqiqat zamanı alimin qaranlıq qalan mövzuları araşdırılıb, müəyyən məsələlərə aydınlıq gətirilmişdir. Avropa mənşəli lirik janrlarda əsərlər qələmə alınmış, digər müəlliflər haqqında da qısa və yığcam şəkildə məlumatlar verilmişdir.

Hüseyn müəllimin maraq doğuran digər bir əsəri isə Əli Məhsun və "Ədəbiyyata dair" əsəridir. Bildiyimiz kimi, Əli Məhzunun İrəvan ədəbi mühitində özünəməxsus mövqeyi və yeri olmuşdur. Lakin onun yaradıcılığı unudulmuş, araşdırılmamışdır. O, Əli Məhzun irsini geniş və əhatəli şəkildə araşdıraraq tədqiqat predmetinə çevirmişdir. Hüseyn müəllimin məqalələrindən görürük ki, Əli Məhzunun 1917-ci ildə çap elətdirdiyi "Ədəbiyyata dair" adlı elmi əsəri bu günümüzdə də ədəbiyyatşünaslıq üçün dəyərli və əhəmiyyətlidir. Hüseyn müəllim Əli Məhzunun yaradıcılığının bir istiqamətini araşdıraraq onun haqqında müəyyən təsəvvürlər yaratmağa çalışmışdır.

Alimin diqqəti cəlb edən başqa bir əsəri isə Azərbaycan mənsur şeirin tarixi kitabıdır. Kitab 2007-ci ildə may ayında Ankara şəhərində çap olunmuşdur. Kitabda mənsurun şeirin tarixindən Azərbaycan ədəbiyyatında yaranması və təşəkkülündən bəhs olunur. Bu istiqamətdə yazan müəlliflərin qələmə aldığı nümunələr toplusudur. Kitabda keçən əsrin əvvəllərində yaşayıb-yaradan (Məhəmməd Hadi, Abdulla Sur, Seyid Hüseyn, Tağı Şahbazi, Əkrəm Cəfər, Nigar Rəfibəyli) şairlərin mənsur şeirlərindən nümunələr verilmiş, həmin nümunələr təhlil edilərək tədqiqata ilk dəfə cəlb olunmuşdur.

Hüseyn Həşimlinin Türkiyə Respublikasında türk dilində çap olunmuş başqa bir əsəri isə Türk halklarının edebiyyat ilişkilərinə dair araştırmalar kitabıdır. Kitabda alimin müxtəlif vaxtlarda fərqli jurnallarda nəşr olunmuş 18 məqaləsi verilmişdir. Məqalələrin bir çoxu Azərbaycan-Türkiyə ədəbi ilişkilərinə aiddir.

Bundan əlavə görkəmli ədəbiyyatşünasın kitabları və məqalələri dünyanın bir çox ölkələrində Bolqarıstanda, Misirdə, İranda, Gürcüstan, Ukrayna, Qazaxıstanda və başqa ölkələrdə çap olunmuşdur.

## ƏSAS HİSSƏ

**"Yeni füyuzat" jurnalı haqqında bəzi tədqiqlər.** Hüseyn Həşimlinin Azərbaycan mətbuat sahəsində xidmətləri böyükdür. "Yeni Füyüzat" jurnalı köhnə "Füyuzat"ın davamı idi. Professor Hüseyn Həşimli "Yeni Füyuzat" jurnalının nömrələrini toplayıb, tərcümə edərək, müasir əlifba ilə 2019-cu ildə nəşr elətdirdi. Jurnal Bakıda Azərbaycan dilində həftəlik nəşr olunurdu. Ümumilikdə jurnalın cəmi 21 nömrəsi nəşr olunmuşdur. Jurnalın redaktoru Əlipaşa Hüseynzadə idi. Mətbuat orqanı Azərbaycan burjaziyasına xidmət edən orqanlardan biri idi. Jurnalın səhifələrində XX əsrin əvvələrində yaşayıb-yaradan böyük Azərbaycan klassikləri M.Ə.Sabir, Ə.Qəmküsar, A.Şaiq, Ə.Kamal, Ə.Müznib, Axund Yusif Talıbzadə, Ə.Hüseynzadə, Namiq Kamal, Əli Mişan, Məhəmmədsadiq Axundov, Ə.Səbri Qasımov və başqalarının yazıları nəşr olunmuşdur. Azərbaycan milli mətbuatının əsas orqanlarından olan "Yeni Füyuzat" jurnalının da nəşrinə 1911-ci ildə son qoyulmuşdur. Əli bəy Hüseynzadə Həştərxana, milliyyətcə türk olan Əhməd Kamal isə vətəninə göndərilmişdir. Bu hadisədən sonra "Füyuzat" jurnalının davamı olan "Yeni Füyuzat" jurnalının sonu olmuşdur. Həmin dövrlərdə təbii ki, sovet imperiyasının tüğyan etdiyi illərdə milli mətbuat orqanı yaratmaq çox çətin idi. XX əsrin əvvəllərində dərc olunmuş jurnalların yaranmasında fəaliyyət göstərmiş insanların əməyi çox böyük və danılmazdır.

Hüseyn Həşimli 2010-cu ildə Hüseyn müəllim jurnalın bütün nüxsələrini tərcümə etdirərərək kitab halında nəşr elətdirmişdir. İlk nömrədəki "Başlanğıc" adlı qeydlərdə bildirilirdi ki, məcmuənin bir illik xərci nəşrə hamilik edənlər tərəfindən ödəniləcək, abunə pulları bankda hifz olunacaqdır, ikinci ildən isə həmin vəsait nəşr qayğılarının həllinə yönələcəkdir. "Yeni füyuzat"ın ilk altı ayda səkkiz səhifə çıxacağı, sonra isə həcmini böyüdəcəyi nəzərdə tutulurdu" [7, s. 16].

Jurnalın həm 1910-da, həm də 1911-ci ildə çap olunmuş nömrələrinin yazı nüxsələrinin hər bir sayı 8 səhifə olubdur. Zaman keçərək təkmilləşib, ətrafına yeni müəlliflər cəlb etmişlər. Jurnalın nömrələrindən görürük ki, "Yeni füyuzat"ın geniş oxucu kütləsi olmuşdur. Hüseyn Həşimlinin "Yeni Füyüuzat" jurnalı haqqındakı məqalələri ilə tanışlıqda görürük ki, jurnal təkcə Azərbaycanda deyil, həmçinin Sovet İmperiyasının bölgələrində də geniş oxucu kütləsi qazanmış "Yeni füzuzat"da jurnalın naşiri və məsul redaktorunun imzalarıyla tez-tez rastlaşırıq. Təbii ki, jurnalın nəşrinə Azərbaycanın ziyalıları istiqamət göstərir, əsas mətləblərin xalqa çatdırılmasında səylərini əsirgəmirlər. O dövrün böyük şairlərindən olan Abdulla Şaiq, Mirzə Ələkbər Sabir, Əliqulu Qəmküsar kimi müəlliflərin müxtəlif şeirləri jurnala böyük nüfüz gətirdi. Tez-tez Səid Əzim Şirvani irsinə müraciət olunurdu.

"Yeni füyuzat"ın baş redaktoru Əli Paşa Hüseynzadə (Səbur) ilk təhsilini Həbib bəy Mahmudbəyovun məktəbində almış, sonra Sultan Məcid Qənizadənin məktəbində təhsilini davam elətdirmişdir. Maddi problem səbəbindən təhsili yarımçıq dayandırmışdır. O, bütün ömrünü Azərbaycan mətbuatına, xalqının maariflənməsinə həsr etmişdir. "Yeni füyuzat" jurnalı köhnə "Füyuzat" jurnalının ənənəsini davam etdirirdi. Lakin köhnə Füyuzat jurnalı kimi "Yeni Füyuzat" jurnalının da ömrü qısa oldu: 18 oktyabr ayından 1910-cu il mart ayının 15 mart tarixinə qədər. Beləliklə, "Yeni Füyuzat" jurnalı ədəbi-mədəni mühitə özünəməxsus oyanış, hərəkət gətirdi. Azərbaycan poeziyasının inkişafında "Yeni füyuzat" jurnalının xidmətləri böyükdür. Hüseyn Həşimli yazırdı ki: "Ümumiyyətlə, Azərbaycan sonetinin təşəkkül mərhələsində "Füyuzat"la yanaşı, "Yeni füyuzat" junalı da önəmli rol oynamışdır" [8, s. 44-63]. "Yeni füyuzat"ın müxtəlif saylarında fəal iştirak edən şairlərdən biri də Əliqulu Qəmküsar olmuşdur.

Əliqulu Qəmküsar da "Yeni füyuzat"da tez-tez şeirlər çap elətdirmişdir. Hüseyn Həşimlinin jurnal haqqındakı kitab və məqalərindən görürük ki, Ə. Qəmküsar Cənubi Azərbaycan şairi Səid Səlmasiyə ölümündən bir müddət əvvəl yazılmış məktubu da çap etdirmişdir. Bu məktubda Səid Səlmasi ilə Əhməd Kamal arasındakı dostluq münasibətlərinin aydınlaşdırılmasına əyani sübütdur. Eyni zamanda vurğulayım ki, Professor Hüseyn Həşimli Səid Səlmasinin yaradıcılığının araşdırılmasında, irsinin üzə çıxmasında misilsiz xidmətləri olmuşdur. Azərbaycan ədəbiyyat tarixindən bizə bəllidir ki, Səid Səlmasi döyüş zamanı öldürülən yeganə şairdir. Sonet müəllifi kimi də ədəbiyyatımızda məşhurdur.

**"Məktəb" jurnalının Azərbaycan mətbuatında rolu.** Azərbaycan maarifçilik hərəkatında xüsusi rol oynamış "Məktəb" jurnalı 1911-ci ildən fəaliyyətini göstərmiş və Azərbaycan maarifçilik hərəkatının inkişafında xidmət etmişdir. Jurnalın baş redaktoru Qafur Rəşad Mirzəzadə olmuşdur. Jurnal Bakıda Azərbaycan dilində iki həftədən bir nəşr olunurdu. Cəmi 95 nömrəsi dərc olunmuşdur. Jurnalda hekayələr, atalar sözü, məsəllər, uşaq ədəbiyyatı nümunələri, lətifələr verilmişdir. N.Nərimanov uşaqları oxumağa, elmə yiyələnməyə, savadlı, bilikli olmağa səsləyirdi. Hüseyn Həşimli bu jurnalı milli mətbuatda ilk uşaq dərgisi nümunəsi kimi araşdırmış, onun müəllif heyəti və ideoloji istiqamətini təhlil etmişdir. Ədəbiyyatşünas alim Hüseyn Həşimli "Məktəb" jurnalını təhlil edərkən belə yazırdı: "Məmmədəli Sidqinin hekayələri ilə tanışlıq onu göstərir ki, bu nümunələrin hər biri dərin müşahidələr nəticəsində qələmə alınmışdır. Aşkar hiss olunur ki, müəllim M.Ə.Sidqi uşaq psixologiyasına yaxşı bələddir. Jurnalın 1911-1920-ci illərdə Bakıda fasilələrlə yüzə yaxın nömrəsi çıxmışdır. 1919-cu ildən isə nəşri dayandırılmışdır. Dövrün tanınmış pedaqoqları Qafur Rəşad Mirzəzadə və Əbdürrəhman Tofiq Əfəndizadənin rəhbərliyi ilə 29 noyabr 1911-ci il tarixində Bakıda nəşrə başlayan bu jurnalın səhifələrində çoxsaylı müəlliflərin təlim-tərbiyə mövzusunda müxtəlif janrlı bədii əsrləri, həmçinin məqalələri dərc olunurdu.

"Məktəb" jurnalı ətrafında müxtəlif şair və yazıçılar, ziyalılar toplaşmışdır. Bunlardan Nəriman Nərimanov, Abdulla Şaiq, Abbas Səhhət, Süleyman Sani Axundov, Əli Nəzmi, Əhməd Cavad, İbrahim bəy Musabəyov, Əliabbas Müznib, Əmin Abid, Cəfər Cabbarlı və sair kimi şəxsiyyətlərə jurnalın nömrələrində tez-tez rast gəlinir. Həmin ziyalı kütləsi istər "Şeypur", "Mollar Nəsrəddin", istərsə də "Məktəb", "Füyüzat", "Yeni Füyüzat" jurnalları ətrafında yığışaraq öz ideallarını xalqa

çatdırmaqdan çətinməmişlər. Seyid Əzim Şirvani, Mirzə Ələkbər Sabir tez-tez nəzirələr olunmuş, onların irsinə müraciət olunmuş. Onların xətti davam etdirilmişdir. "Məktəb"in müxtəlif yaradıcılıq yolu olmuşdur. Jurnalda tarixi hadisələrə də yer verilirdi. 1911-ci ildə çıxan 2-ci nömrə M.F.Axundovun anadan olmasının 100 illiyinə, 1912-ci ildə çıxan 7-ci nömrə A.S.Puşkinin vəfatının 75-ci illiyinə həsr olunmuşdur.

N.Nərimanov kiçik yaşlı uşaqlar üçün dərgidə tez-tez şeir və hekayələr dərc elətdirirdi. Həmin rubrikalardakı şeir və hekayələr məktəblilərin dünyagörüşünü zənginləşdirmək, biliklərini dolğunlaşdırmaq məqsədi daşıyırdı. "Məktəb" jurnalı bir növ tərbiyəvi əhəmiyyət daşıyırdı. "Bizim bu "Məktəb"i nəşr elətdirməkdə məqsədimiz məktəb şagirdlərinin irəliləmələrinə köməklik etməkdir. İndiyə qədər uşaq ədəbiyyatını öyrənən ədəbiyyatşünaslar bu mətbuat orqanı vasitəsiylə həm Azərbaycan ədəbiyyatını, həm də uşaq ədəbiyyatını öyrənmək baxımından istifadə etmişlər. Lakin yüzə yaxın nömrəsi çıxmış, müəllif səpkili əsərlərlə zəngin olan bu jurnalın tədqiqata cəlb olunanmasında, arxiv materialların, arxiv nüsxələrinin üzə çıxmasında professor Hüseyn Həşimlinin əməyi böyükdür.

Mütəfəkkir ədibimiz Hüseyn Cavid qədim tarixə malik Azərbaycan ədəbiyyatının ən böyük ustadlarındandır. Görkəmli romantik sənətkarın möhtəşəm ilham və bənzərsiz istedadla yazılmış lirik-fəlsəfi şeirləri, müxtəlif mövzularda mənzum və mənsur dramatik əsərləri söz sənətimizin ideaya-bədii yüksəlişində çox mühüm rol oynamış, bu gündə oynamaqdadır. Romantik şair Hüseyn Cavidin uşaq ədəbiyyatı üçün yazdığı şeirlər də müxtəllif illərdə Məktəb jurnalında nəşr olunmuşdur. Hüseyn Cavid "Məktəb" jurnalının 1912-ci il 21 aprel nəşrində "İlk bahar" şeiri, 1912-ci il 22 may nəşrində "Bir qız" şeiri (Qız məktəbində), İsmayıl bəy şeirini ("Tərcüman" jurnalının naşiri və redaktoru İsmayıl Qaspıralının vəfatı ilə əlaqədar qələmə alınmışdır) 21 oktyabr 1914-cü ildə nəşr elətdirmişdir. Müstəqillik dövründə isə bir neçə dəfə nəşr olunmuşdur. Dialoqlar əsasında qurulan "Qız məktəbi" şeiri Gülbaharın saf və ülvi fikirlərindən ibarətdir.

Qədim Naxçıvan torpağının yetirməsi olan Məmmədəli Sidqi də XX əsrdə müxtəlif jurnallarda çıxış etmişdir. Böyük maarifçi Məhəmməd Tağı Sidqinin oğlu bu böyük ziyalı atasının ideyalarını, yolunu ləyaqətlə davam və inkişaf etdirmiş, maarif, mətbuat, ədəbiyyat, mədəniyyət sahəsində diqqətəlayiq işlər görmüşlər. Məmmədəli Sidqinin "Məktəbə gec gələn şagird" hekayəsi "Məktəb" jurnalında dərc olunmuşdur.

Naxçıvan ədəbi mühitinin yetirmələrindən Əli Səbri Qasımovun da "Məktəb" jurnalı ilə əlaqələri diqqəti çəkir. O da Məktəb jurnalının müxəlif nömrələrində çıxış edir. Əli Səbri Qasımov tərcümə sahəsində də diqqətəlayiq işlər görmüşdür. Onun bədii tərcümələrinin dərc olunduğu mətbuat orqanı sırasında "Məktəb" jurnalı da vardır. "Əli Səbri Qasımovun Bakıda çıxan "Məktəb" jurnalının 22 may 1912-ci il tarixli 13-cü sayında oxuculara çatdırılmış "Kəndli və Su adamı" adlı tərçüməsi də L.N.Tolstoydan çevirmə kimi maraq doğurur" [4, s. 192-193]. Mətnşünas alim Hüseyn Həşimli "Əli Səbri" monoqrafiyasında və bir sıra məqalələrində yazıçının həyat və yaradıçılığını, o cümlədən bədii tərcümələri barədə geniş şəkildə araşdırma aparmışdır. O təkcə tərcüməçilik eləmir, həmçinin jurnalın problemləri, fəaliyyəti ilə də yaxından məşğul olur. Bir növ jurnalın texniki tərəfindən o məsuliyyət daşıyırdı. Onun "Himmət lazımdır" məqaləsi xüsusilə maraqlıdır. Əli Səbri "Məktəb" jurnalının səhifələrində tez-tez çıxış edən tanınmış ədib Süleyman Sani Axundovun, eləcə də o zaman Bakıda müəllimliklə yanaşı, maraqlı bədii-publisistik əsərləri yazan Şəfiqə xanım Əfəndizadənin fəaliyyətini və əsərlərini yüksək qiymətləndirmişdir.

Naxçıvan ədəbi mühitinin yetirdiyi şəxsiyyətlərdən biri də Ələkbər Qərib Naxçıvanlı olmuşdur. İlk təhsilini Naxçıvanda almışdır. "Ə.Q.Naxçıvanlı iyirminci əsr Azərbaycan ədəbiyyatında sentimentalizm ədəbi cərəyanının görkəmli nümayəndələrindən biridir. Onun nəsr əsərləri ideya-bədii mükəmməlliyi ilə diqqəti çəkir" [5, s. 173]. Ələkbər Qərib Naxçıvanlının da yaradıcılığını ilk dəfə Hüseyn Həşimli tədqiq edib, elm aləminə gətirmişdir. Onun yaradıcılığında sentimentalist hisslər də bu sahədə maraq doğurur. O da "Məktəb" dərgisi ilə əməkdaşlıq edib. "Bacı və qardaş" hekayəsi "Məktəb" jurnalında çap olunmuşdur. "Bacı və qardaş" hekayəsi uşaq ədəbiyyatının maraqlı

nümunələrindəndir. Bu əsər uşaq ədəbiyyatına, uşaq psixologiyasına aid mükəmməl əsərdir. Ələkbər Naxçıvanlının (Abbasovun) bədii tərcümə sahəsində fəaliyyətinin də "Məktəb" jurnalı ilə əlaqəsi vardır. Belə ki, o, Qori Seminariyasının tələbəsi ikən, 1912-ci ildə məşhur rus sentimentalist yazıçısı N.M.Karamzinin "Bədbəxt Liza" əsərini dilimizə çevirmiş və bu tərcümə həmin ildə Bakı mətbəəsində ayrıca kitabça kimi nəşr olunmuşdur [7, s. 94]. Ümumiyyətlə, Bakıda 1911-1920-ci illərdə dərc olunan Məktəb jurnalı ilə əməkdaşlıq edən ədiblər sırasında təkcə Bakı ədəbi mühitinin deyil, həmçinin Naxçıvan ədəbi mühitinin də ziyalıları yaxından iştirak etmişlər.

**"Şeypur jurnalının tədqiq tarixi.** Mətnşünas alimin tədqiqata cəlb edib, tədqiq etdiyi jurnallardan biri də "Şeypur" jurnalı idi. Hüseyn Həşimli 1918/1919-cu illərə dərc olunmuş "Şeypur" jurnalının nömrələrini yığaraq müasir əlifba ilə dərc elətdirmişdir. Bildiyimiz kimi, Şeypur jurnalı bir il fəaliyyət göstərib cəmi 14 sayı nəşr olunmuşdur. Həftədə bir dəfə bir nömrəsi "Turan" mətbəəsində dərc olunurdu. Jurnalın baş redaktoru maarifçi Məmmədtağı Sidqinin oğlu Məmmədəli Sidqi, naşiri Səməd Mənsur idi. "Məmmədəli Sidqi bir redaktor olaraq onu da vurğulayırdı ki, jurnal düzə düz, əyriyyə əyri deyəcək, həqiqət carçısı olacaqdır" [4, s. 116-117]. "Şeypur" jurnalının nömrələrində ədiblərin müxtəlif səpkili şeirləri ilə, publisistik məqalələri ilə diqqəti cəlb edir. Böyük ədəbiyyatşünas alimin tədqiqatlarından görürük ki, " Şeypur" jurnalı son zamanlara kimi lazımi qədər araşdırılmamış, elmi mühitin diqqətindən kənarda qalmışdır.

Jurnal haqqında geniş tədqiqat aparmış filologiya elmləri doktoru Hüseyn Həşimli yazırdı ki, "Şeypur"a uzun illər birtərəfli laqeyd münasibət onun mövzu-ideya mündəricatı, izlədiyi qayə ilə bağlı idi [9]. Hüseyn Həşimli "Şeypur" jurnalı haqqındakı məqalələrində ermənilərin Bakıda və Naxçıvanda (Ordubadda) azərbaycanlılara qarşı törətdikləri qırğınlardan bəhs edir. Bu faktlar "Şeypur" jurnalının sayında faktlarla publisistik məqalələrdə öz əksini tapmışdır. Hüseyn müəllim jurnalın saylarında dərc olunmuş şeir və məqalələri tədqiqata cəlb edir, qaranlıq sirləri faktlarla sübuta yetirməyə çalışmışdır. Şeypur jurnalının səhifələrində daşnakların soydaşlarımıza qarşı törətdiyi qırğınla gah ciddi, gah da satirik tərzdə tənqid hədəfinə çevrilmişdir. Maraqlı faktlardan biri də budur ki, Cəfər Cabbarlının Ədirnə fəthi əsəri ilk dəfə Şeypur jurnalında çap olunubdur.

Şeypurun səhifələrində ən çox şeirləri dərc olunan şairlərdən biri Səməd Mənsur idi. Jurnalın demək olar ki, hər sayında Səməd Mənsurun satirik şeirləinə rast gəlinir. Bəllidir ki, istedadlı sənətkar S.Mənsur həm lirik, həm də satirik şeirlər yazmış, hər ikisində də uğur qazanmışdır. "Şeypur" jurnalında Səməd Mənsurun rolu danılmazdır. Hüseyn Həşimli Səməd Mənsur haqqında yazır ki, "Səməd Mənsur "Şeypuru"un nəşrində də ciddi xidmətlər göstərmişdir. Jurnalda ən çox şeir dərc elətdirən şairlərdən biri idi. Səməd Mənsur istedadlı qələm sahibi, təcrübəli mətbuat xadimi olmuşdur. "Azərbaycan Xalq Cühhuriyyəti dövründə mətbuatda satirik şeirləri ən çox dərc edilən şairlərdən biri Səməd Mənsur idi [6, s. 12-13].

Satirik şeirlərində Molla Nəsrəddin abu-havası hiss olunur. Səməd Mənsurun "Şeypur" jurnalının ilk nömrəsində "Pampuşalı" imzasıyla şeirlər vermişdir. "Qaçmaq günüdür" [2, s. 16-17] şeirində bir çox gizli imzalara rast gəlirik. Səməd Mənsur bu şeirində AXC ordusunun Bakının azad etməsi üçün birgə apardıqları əməliyyatlar verilir. Jurnalın ilk nömrəsində "Altı ay" adlı məqalə verilir. Məqalə çox güman ki, Məmmədəli Sidqiyə aiddir. Məmmədəli Sidi jurnalın baş redaktoru olubdur. İlk məqaləni də onun yazması daha məntiqə uyğundur. "Həmin sayda "Yaftım" imzalı "Zəbani-hal" [1, s. 25-26] adlı şeirdə isə bolşeviklərin, Şaumyan kimi maskalı daşnakların Bakıdakı qanlı cinayətləri pislənir" düşmənlərin mənfur siması satirik biçimdə üzə çıxarılmışdır.

Məmmədəli Sidqi də mətbuatda təsadüfi sima deyildi. O, Mirzə Cəlil məktəbi keçmişdir. 1910-1911-ci illər arasında "Molla Nəsrəddin" nin redaktor köməkçisi kimi fəaliyyət göstərmişdir. Şeypurda sanki Molla Nəsrəddin ənənələrini hiss edirik. Burada jurnalın əsas ağırlığı, yükü Səməd Mənsurla, Məmmədəli Sidqinin üzərinə düşürdü. Jurnalda felyotonlar, satirik şeirlər dərc olunurdu. Jurnalın səhifələrində Pampuşalı, Kənarçı Pampuşalı imzaları ilə Səməd Mənsur poeziya və publisistika nümunələri dərc etdirmişdir. Jurnalın araşdırılmasında ağırlıq yaradan mənbələrdən biri də Şeypurda imzaların kimə mənsubluğudur. Jurnala coxlu sayda imzalar verilmişdir. Ədəbiyyatşünaş

alim bu imzaların kimə mənsub olması ilə bağlı geniş araşdırmalar, tədqiqatlar aparmışdır. Ümumiyyətlə, Şeypur jurnalı geniş yazarlar heyətinə malik idi. Jurnalın səhifələrində müxtəlif imzalarla rəngarəng xarakterli bədii və publisitik materiallar dərc olunmuşdur. Posta qutusu, Teleqraf xəbərləri, Bakı xəbərləri, Simsiz teleqram xəbərləri, Havadan qapılmış xəbərlər kimi rubrikalardakı materiallar, eləcə də bəzi şeirlər, məqalə və felyotonlar imzası verilmişdir. Şeypurun müəllifləri Molla Nəsrəddin ənənələrinə sadiq qalmışlar, zəif əsərləri öz səhifələrində yer verməməyə çalışmışlar. Şeypur jurnalı bir il beş ay nəşr olunmasına baxmayaraq jurnalın səhifələrində cəmiyyətin sosial, siyasi, mədəni məsələlərinə obyektiv diqqət yetirmişdir. Şeypur jurnalı nəşrə başlamaqla o dövrün Azərbaycan mətbuatında olan müəyyən boşluğu doldurmağa səy göstərdi və deyə bilərik ki, məqsədinə də nail oldu. O da unudulmamalıdır ki, ümumiyyətlə Məmmədəli Sidqi və Səməd Mənsur Şeypur jurnalını çətinliklə böyük əziyyət hesabına nəşr elətdirmişdir. Şeypur jurnalı nəşrə başlamaqla o dövrün Azərbaycan mətbuatında olan müəyyən boşluğu doldurmağa səy göstərdi və deyə bilərik ki, ümumən məqsədinə nail oldu. "Şeypur"çular müxtəlif çətinliklərin öhdəsindən cəmi bir neçə ay gələ bildilər. Jurnalın 18 yanvar 1919-cu ildə işıq üzü görən 14-cü sayı sonuncu oldu. Beləcə, "Şeypur"un həqiqət harayı susdu, fəqət əks-sədası yaddaşlardan silinmədi.

Şeypurda milli ovqatlı, antidaşnak, antibolşevik ruhlu əsərlər dərc elətdirən vətənpərvər ədiblərin əksəriyyətinin isə aqibəti müxtəlif səbəblər ucbatından niskilə, ağrı-acıya büründü. Cəfər Cabbarlı gənc yaşda dünyasını dəyişdi, Salman Mümtaz, Əliabbas Müznib, Əmin Abid və bəzi digərləri əsassız "xalq düşməni" ittihamı ilə represiya qurbanı oldular. "Şeypur"un naşiri, istedadlı şair-publisist və vətənpərvər ziyalı Səməd Mənsur əlli yaşına çatmamış 1927-ci ildə dünyasını dəyişdi. Yaşasaydı da, çox güman ki, 1937-ci il represiyyasından qurtula bilməyəcəkdi. Amma öz əcəli ilə ömrünü başa vursa da, xalq yazıçısı Anarın vurğuladığı kimi, vəfatından sonra "Quruluş onu başqa bir cəzaya məhkum etdi-unuduluşa... Güya bu adla şair yazıb-yaratmayıbdır. "Şeypurun redaktoru, Azərbaycan ədəbiyyatına, mətbuatına əlli il ləyaqətlə xidmət etmiş Məmmədəli Sidqi isə 1956-cı ildə, 68 yaşında əbədiyyətə qovuşdu.

Şeypur jurnalının bütün saylarındakı ədəbi və bədii-publisistik nümunələr həm mövzu, həm də sənətkarlıq baxımından mükəmməldir. Burada məişətdəki problemlərdən tutmuş aktual beynəlxalq və milli problemlər özünü müvafiq təcəssümünü göstərmişdir. Vətən və xalq taleyi, bolşevik-daşnak fitnəkarlığına qarşı mübarizəyə çağırış, istiqlalın möhkəmləndirilməsi uğrunda mücadilə, hərbi quruculuq, siyasi idarəçilik, iqtisadi tərəqqi, ana dilinin saflığı, mətbuat azadlığı, ziyalı və xalq kimi məsələlər Şeypurda poetik və publisistik şəkildə qaraldırılaraq özünü göstərmişdir.

Lakin faktlar unudulmur, xidmətləri gec-tez qiymətini aldı. Məmmədəli Sidqi, Səməd Mənsur və digər Şeypurçular çoxşaxəli fəaliyyətləri ilə maarif, ədəbiyyat, mətbuat və mədəniyyətimiz tarixində diqqətəlayiq yer tutur.

**YEKUN NƏTİCƏ**

Görkəmli ədəbiyyatşünasın XX əsrin əvvələrində dərc olunmuş jurnalları toplanmasında, təddiq olunmasında rolu çox böyükdür. Hətta bu jurnallarda fəaliyyət göstərmiş böyük naxçıvanlı şair və yazıçıların ədəbi irsini öyrənmək baxımından böyük əmək sərf etmişdir. Ümumiyyətlə, Bakıda 1911-1920-ci illərdə dərc olunan Məktəb jurnalı ilə əməkdaşlıq edən ədiblər sırasında təkcə Bakı ədəbi mühitinin deyil, həmçinin Naxçıvan ədəbi mühitinin də ziyalıları yaxından iştirak etmişlər. Hüseyn müəllim jurnalın saylarında dərc olunmuş şeir və publisistik məqalələri tədqiqata cəlb edir, qaranlıq qalan sirləri faktlarla sübuta yetirməyə çalışmışdır. Əməkdar elm xadimi, professor Hüseyn Həşimlinin araşdırmaları Naxçıvanşünaslıq üçün çox dəyərli bir mənbədir. Bu günkü günümüzdə XX əsrin əvvəllərində dərc olunmuş jurnallara nəzər salanda görürük ki, həmin bu jurnallar özünəməxsus şəkildə təkamül yolu keçmiş, əsrarəngiz nümunələri ilə mətbuat tariximizi işıqlandırmışdır.

## ƏDƏBİYYAT

1. Həşimli, H. “Şeypur” jurnalı və Naxçıvan / H.Həşimli.– . AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutu “Axtarışlar” jurnalı, – 2014. –136 s
2. Həşimli, H. “Yeni füyuzat” jurnalı (1910-1911-ci illər) / H.Həşimli. – Bakı: Elm və təhsil, – 2010. – 448 s
3. Həşimli, H. “Şeypur” jurnalı və ədəbi-tarixi həqiqətlər / H.Həşimli. – Bakı: Elm və təhsil, – 2017. – 168 s
4. Həşimli, H. AMEA Naxçıvan Bölməsi Elmi əsərlər jurnalı № 1 / H.Həşimli. – Naxçıvan: Tusi, – 2020. – 288 s
5. Həşimli, H. AMEA Naxçıvan Bölməsi Elmi əsərlər jurnalı № 3 / H.Həşimli. – Naxçıvan: Tusi, – 2020. – 302 s
6. Həşimli, H. Azərbaycan xalq cümhuriyyəti dövründə satirik poeziya / H.Həşimli. – Bakı: Elm və təhsil, – 2017. 104 s
7. Həşimli, H. Naxçıvan yazıçılar və “Məktəb” jurnalı / H. Həşimli. – Bakı: Elm və təhsil, – 2019. – 144 s
8. Həşimli, H. Azərbaycan poeziyasında sonet və terset/ H. Həşimli. – Bakı: Elm və təhsil, – 2003. – 312 s.
9. Həşimli H. Məmmədəli Sidqinin redaktor olduğu “Şeypur” jurnalı haqqında / H. Həşimli. – “Şərq qapısı” qəzeti, – 2013
10. Yurdoğlu, E 2025. Mən sözə söykənmişəm / E.Yurdoğlu.– Naxçıvan: Əcəmi Nəşriyyat Poliqrafiya Birliyi, – 2025. – 592 s
11. https://525.az/news/144449-qebul-imtahaninda-ela-qiymet-almaqdan-boyuk-elme-isa-hebib-beyli-yazir
12. https://edebiyyatqazeti.az/news/edebi-tenqid/13721-60-a-yetmeyen-ve-ebedilesen-omur

## HUSEYN HASHIMLI'S SERVICES IN MAGAZINES PUBLISHED IN THE EARLY 20TH CENTURY

**N.M. Ibrahimova**

The history of the Azerbaijani press is an integral part of the process of national enlightenment and literary and cultural revival. Thanks to systematic research conducted in this field, many press organs have entered scientific circulation and have been brought to the attention of modern researchers. In this context, the services of Huseyn Hashimli are particularly distinguished. The article discusses the activities and services of Professor Huseyn Hashimli, one of the representatives of the Azerbaijani literary school, in the satirical magazine “Sheypur”, the enlightening magazine “Mektab”, and the magazines “Yeni fuyuzat”, published at the beginning of the 20th century. The article examines the services of Professor Huseyn in the restoration, analysis and introduction of these magazines to the modern literary environment for the first time in Azerbaijani literary studies. Huseyn Hashimli summarized the artistic style of these press organs and the main merits of the examples given in various issues from a scientific and literary point of view and came to the appropriate conclusion.

**Keywords:** *Huseyn Hashimli, "School", "New Fuyuzat", Sheypur, Azerbaijani school, enlightenment.*

# СОЧИНЕНИЯ ХУСЕЙНА ХАШИМЛИ В ЖУРНАЛАХ, ОПУБЛИКОВАННЫХ В НАЧАЛЕ XX ВЕКА

**Н.М. Ибрагимова**

История азербайджанской прессы является неотъемлемой частью процесса национального просвещения и литературно-культурного возрождения. Благодаря систематическим исследованиям в этой области многие печатные издания вошли в научное обращение и привлекли внимание современных исследователей. В этом контексте особенно выделяются заслуги Гусейна Хашимли. В статье рассматривается деятельность и заслуги профессора Гусейна Хашимли, одного из представителей азербайджанской литературной школы, в сатирическом журнале «Шейпур», просветительском журнале «Мектаб» и журналах «Ени фуюзат», издававшихся в начале XX века. В статье впервые в азербайджанском литературоведении исследуется вклад профессора Гусейна в восстановление, анализ и представление этих журналов в современной литературной среде. Гусейн Хашимли обобщил художественный стиль этих печатных изданий и основные достоинства приведенных в различных выпусках примеров с научной и литературной точки зрения и пришел к соответствующему выводу.

**Ключевые слова:** *Хусейн Хашимли, «Школа», «Новый Фуюзат», Шейпур, азербайджанская школа, Просвещение.*